

# Azərbaycanın qaz ixracı Avrasiya məkanını da əhatə edir

## Ölkəmizin təbii qazı ötən ilin sonlarında Şimali Makedoniyanın bazarına çatdırılıb



(əvvəli 1-ci səhifədə)

Azərbaycan Balkanlarda yerləşən Şimali Makedoniya üçün də cəlbedici ölkədir. Oxşar tariximiz və inkişaf prosesləri, eyni zamanda Azərbaycanın karbohidrogen ehtiyatları dövlətlərimiz arasındakı əlaqələrin inkişafı zərurətini meydana çıxarıb. Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında əhəmiyyətli rol oynaması Avropa İttifaqı dövlətlərinin maraqlarını təmin edir. Ölkəmizin bir çox qlobal neft və qaz layihələri Şimali Makedoniyanın da maraq dairəsindədir. Həmçinin Cənub Qaz Dəhlizi, Trans-Anadolu Qaz kəməri (TANAP), Trans-Adriatik Qaz kəməri (TAP) layihələrində Azərbaycanın əməkdaşlıq etdiyi ölkələrin bir çoxunun da Şimali Makedoniya ilə yaxın əlaqələri mövcuddur. Bakı ilə Skopye arasında əməkdaşlıq ölkəmizin Qərbdə, xüsusilə daha da aktuallaşan enerji təhlükəsizliyi məsələsində güclənən mövqeyini və rolunu bir daha ifadə edir.





Xəzər hövzəsinin zəngin enerji potensialına malik ölkəsi kimi tanınan və bölgənin lider dövləti statusunu qoruyan Azərbaycan dünya dövlətləri üçün strateji tərəfdaş kimi qazandığı etimadı yeni layihələrin reallaşmasında göstərdiyi qətiyyəti ilə təsdiqləyir. Avropa İttifaqına daxil olan ölkələrin təbii qazla təminatı üçün nəzərdə tutulan neft-qaz boru kəmərlərinin siyasi, iqtisadi əhəmiyyəti, perspektivi ətrafında aparılan müzakirələrdə də Azərbaycan amilinə daim xüsusi önəm verilir. Xarici siyasətimizin əsas tərkib hissəsi olan ayrı-ayrı ölkələrlə ikitərəfli əməkdaşlığın möhkəmlənməsində mühüm faktor olan qarşılıqlı səfərlər zamanı aparılan müzakirələrdə də iqtisadi amil əsas yer tutur. Enerji sektorunda əməkdaşlıq iqtisadi əlaqələrin inkişafında öz sözünü deyir. Ölkəmizlə həm ənənəvi enerji, həm də bərpaolunan enerji sahəsində əməkdaşlıqda maraqlı olan dövlətlərin sayı artır. Bu, ölkəmizin enerji siyasətinin uğurlarıdır. Daim bu fikir qeyd edilir ki, neftlə zəngin çox ölkələr var. Amma bu resurslar heç də onların tərəqqisinə xidmət etmir, əhali arasında təbəqələşmə prosesi gedir. Azərbaycanda isə vəziyyət tamamilə fərqlidir. Ölkəmizin iqtisadi strategiyasını dünyanın qabaqcıl ölkələrinin təcrübəsinə istinadən işləyib hazırlaması Azərbaycanın dayanıqlı iqtisadi inkişafının təmin olunması mühüm əhəmiyyət kəsb edir. Enerji layihələrinin uğurlu icrası ölkəmizin dünyanın enerji təhlükəsizliyinin təminatında aparıcı rolunu günbəgün artırır. Həmçinin bu layihələr dünyanın enerji xəritəsinin yenidən tərtib olunmasında əhəmiyyətli rol oynayır.

Onu da qeyd edək ki, Azərbaycan dünya dövlətləri üçün strateji tərəfdaş kimi qazandığı etimadı yeni layihələrin reallaşmasında göstərdiyi qətiyyəti ilə doğruldur. Zəngin karbohidrogen ehtiyatlarına malik olan, eyni zamanda neft-qaz resurslarının işlənməsində böyük təcrübə qazanan Azərbaycan müstəqillik illərində regional və qlobal əhəmiyyət daşıyan bir sıra yeni, diversifikasiya edilmiş enerji layihələrini reallaşdırmağa nail olub. Azərbaycanın iqtisadi imkanlarının dünyaya təqdimatında və siyasi mövqeyinin möhkəmləndirilməsində əhəmiyyətli rola malik olan "Əsrin müqaviləsi"nin 23 illiyi ərəfəsində, 2017-ci ildə "Yeni əsrin müqaviləsi"nin imzalanması neft strategiyasının yeni mərhələsinin əsasını qoydu. Bu müqavilə müasir Azərbaycanın tarixində yeni eranın başlanması, ölkənin siyasi və iqtisadi təhlükəsizliyinə əlavə təminat, yeni investisiya qoyuluşu, Ümumi Daxili Məhsulun artımı, yeni iş yerlərinin yaradılması və sosial rifahın yaxşılaşdırılması kimi dəyərləndirildi. Avropa Birliyinə daxil olan ölkələrin təbii qazla təminatı üçün nəzərdə tutulan neft-qaz boru kəmərlərinin siyasi, iqtisadi əhəmiyyəti, perspektivi ətrafında aparılan müzakirələrdə Azərbaycan amilinə xüsusi önəm verilir.

Şaxələndirilmiş uğurlu enerji siyasəti hazırkı qlobal risklər şəraitində respublikamıza böyük iqtisadi və siyasi dividendlər gətirməklə yanaşı, tərəfdaş ölkələrin də enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Məhz ölkəmizin şaxələndirilmiş enerji siyasəti, təşəbbüsləri, böyük fəallığı və daim xoş niyyət nümayiş etdirməsi sayəsində hazırda Xəzər hövzəsi bir sıra ölkələr, Asiya ilə Avropa arasında qarşılıqlı faydalı əməkdaşlıq məkanına çevrilib. Azərbaycan qazını Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Rumıniya, Macarıstan, Serbiya və İtaliya vasitəsilə isə Almaniya, Böyük Britaniya, Fransa və İsveçrədən bir neçə iri enerji şirkətləri alır. Albaniya, Bosniya və Herseqovina, Monteneqro, Xorvatiya, Slovakiya qaz almaqda maraqlıdır.

Şimali Makedoniyanın Prezidenti Qordana Silyanovska-Davkova bildirib ki, Azərbaycan nəinki beynəlxalq geosiyasi səhnədə mühüm yerləşməsi ilə seçilir, o cümlədən bizim kimi kiçik ölkələrin ehtiyac duyduğu təbii qaz, bərpaolunan enerji baxımından çox maraqlı tərəfdaşa çevrilir. Coğrafi mövqeyimizə görə Balkanlarda, Avropanın mərkəzində, bir sıra marşrutların kəsişməsində yerləşirik. Bu, Avropaya və dünyaya açıq olan hər bir ölkə üçün olduqca vacibdir: "Zənnimcə, Avropa yenidən qapılarını açır və sizin nailiyyətləriniz sayəsində biz gələcək əməkdaşlığımızı davam etdirə bilərik".

Ümumiyyətlə, Azərbaycanın Avropa ölkələrini qazla təchiz etməsi indiki dönəmdə çox böyük əhəmiyyət daşıyır. Çünki Rusiya-Ukrayna müsahibəsi fonunda Rusiyanın eneri daşıyıcılarından imtina prosesi baş verir. Artıq bir çox dövlət Rusiyanın enerji daşıyıcılarından imtina edərək qaz ehtiyatları olan başqa ölkələrlə sazişlər bağlama istiqamətlənirlər. Yaranmış bu vəziyyətdə Azərbaycanın önəmi və həmin ölkələri qazla təchiz etmək imkanları önə çıxır. Bir sıra Avropa ölkələri və beynəlxalq təşkilatların Azərbaycana qarşı təzyiqləri hələ də davam etsə də, artıq bir çox dövlətlə qarşılıqlı münasibətlər inkişaf edir. Amma nəzərə almaq lazımdır ki, Avropa İttifaqının 27 ölkəsindən 10-u ilə Azərbaycan ikitərəfli strateji müttəfiqlik haqqında müqavilələr imzalayıb. Həmin ölkələr də ölkəmizin enerji daşıyıcılarından yararlanırlar.




Bu baxımdan, dünya dövlətləri Azərbaycanla bu istiqamətdə də geniş iqtisadi münasibətlər qurmağa çalışdığını da qeyd etmək lazımdır. Cənab İlham Əliyevin bəyanatında bildirdiyi kimi, təxminən üç il bundan əvvəl Bakıda imzalanmış Avropa İttifaqı ilə Azərbaycan arasında energetika sahəsində strateji tərəfdaşlıq Bəyannaməsi bunun əyani təzahürüdür. Azərbaycan 2021-ci ilin iyulunda Avropa İttifaqı (Aİ) ilə imzaladığı müqaviləyə əsasən 2027-ci ilədək Cənub Qaz Dəhlizi vasitəsilə Avropaya təbii qaz ixracının həcmini 30 milyard kubmetrə çatdıracaq. Bu gün Yunanıstanın təbii qaza olan tələbatının 18 faizini Azərbaycan ödəyir. Cari ildə Yunanıstana 1,2 milyard kubmetr təbii qazın ixrac edilməsi nəzərdə tutulub. Energetika Nazirliyinin açıqlamasına əsasən 2028-ci ildə "Ümid" və "Abşeron" yataqlarından böyük həcmdə təbii qazın hasil edilərək dünya bazarına çıxarılması gözlənilir. Azərbaycanın təsdiq edilmiş təbii qaz ehtiyatı 2,6 trilyon kubmetrdir ki, bu da uzun müddətdə qaz ixracının artırılmasına imkan verir. Bundan başqa, 2027-ci ilin sonunadək Azərbaycan "yaşıl enerji" layihələri çərçivəsində 1862 MVt külək və günəş elektrik enerjisi istehsal etməyi planlaşdırıb ki, bu da 1 milyard kubmetr "mavi yanacağ"a qənaət etməyə imkan verəcək. Bu gün Azərbaycan qazı bir çox Avropa ölkəsinin enerji təhlükəsizliyini təmin edir və Avropadakı tərəfdaşlarımızın xahişlərinə biz hər zaman böyük diqqətlə yanaşmışıq.

Hazırda Azərbaycan özünün qaz təchizatının coğrafiyasını Avropa bazarına qədər genişləndirir. Bu, bütün tərəflər üçün faydalı vəziyyətdir. Çünki Avropaya öz enerji təhlükəsizliyinin qorunması üçün qaz lazımdır, Azərbaycanın isə özünün nəhəng enerji resursları üçün etibarlı bazara ehtiyacı var. Ölkəmiz heç vaxt öz enerji resurslarından başqa məqsədlər üçün istifadə etməmişdir. Dövlət başçısının bu sahədəki fəlsəfəsi və yanaşması ondan ibarətdir ki, enerji resursları əməkdaşlığı dərinləşdirməlidir, birliyi möhkəmləndirməlidir. Bu siyasəti apararaq öz milli maraqlarımızı təmin edirik. Həm bölgədə, həm dünyada maraqlarımız təmin edilir.

Azərbaycan və Şimali Makedoniya arasında ikitərəfli münasibətlərin inkişafı son illər ərzində xeyli sürətlənib. Əməkdaşlıqda siyasi dialoq dinamik xarakter alıb, əlaqələrin inkişafı üçün əlavə tədbirlər görülüb. Eyni zamanda iqtisadi sektorda, sərmayə qoyuluşu sahəsində imkanlar araşdırılaraq müvafiq qərarlar qəbul edilib. Əlamətdar haldır ki, iki ölkə tərəfindən energetika sahəsində səmərəli əməkdaşlığa başlanılıb.

Bütün bunları nəzərə alaraq əminliklə söyləyə bilərik ki, Şimali Makedoniya Prezidenti Qordana Silyanovska-Davkovanın Azərbaycana rəsmi səfəri yaxın zamanlarda Bakı ilə Skopye arasında ikitərəfli münasibətlərin daha da inkişaf edəcəyini şərtləndirəcək.

**Mustafa KAMAL,**
**"Respublika".**